

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 4 (23.891)

8 yanvar 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



*AMEA Naxçıvan Bölməsində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələrə və ötən ilin yekunlarına həsr olunmuş tədbir keçirilib.*

Tədbiri açan bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, bölmə əməkdaşları tərəfindən aparılan tədqiqatlar 15 monoqrafiya, 11 kitab, 1 kitabça, 2 metodik vəsait, 457 elmi məqalə, 182 konfrans materialı, 5 tezis olmaqla, 672 elmi əsərdə əksini tapıb. 3 buklet, 3 xəritə tərtib edilib, 2 patent və 1 sənaye nümunəsi təsdiq olunub. Əsərlərdən 159-u xaricdə nəşr edilib. 46 məqalə impakt faktorlu jurnallarda çapdan çıxıb, bunlardan 17-si Clarivate Analytics indekslidir. Bölmə əməkdaşlarının əsərlərinə il ərzində 880 istinad qeydə alınıb. Bölmədə 2 beynəlxalq səviyyəli qrant layihənin icrası uğurla davam etdirilib.

"Elmi əsərlər" və "Axtarışlar" jurnallarının hər birinin dörd nömrəsi işıq üzü görüb. Qars müqaviləsinin 100 illiyi ilə əlaqədar "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsi, "Elmi əsərlər" jurnalının Aşıq Ələsgərin 200 və Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileylərinə həsr olunan xüsusi nömrələri nəşr olunub. Bölmədə bir beynəlxalq səviyyəli, 2 respublika səviyyəli olmaqla, bir sıra elmi konfrans keçirilib.

Məruzədə, həmçinin kadr hazırlığı məsələsi də diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə 1 nəfərə elmlər doktoru elmi dərəcəsi 2 nəfərə dosent elmi adı verilib. Əməkdaşlardan 1 nəfər elmlər doktoru dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib. Bölmədə fəaliyyət göstərən Dissertasiya Şurasında 7 fəlsəfə doktoru dissertasiyasının müdafiəsi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə AMEA Naxçıvan Bölməsində YUNESKO səviyyəli "İlandağ" geoparkının yaradılması və onun Qlobal Geoparklar Sisteminə və Ümumdünya İrsi Siyahısına salınmasına dair tədbirlər həyata keçirildiyini söyləyən alim bildirib ki, layihə çərçivəsində geoparkın yerləşəcəyi ərazinin kompleks qiymətləndirilməsi və ətraflı geoloji-geomorfoloji təsviri istiqamətində işlər görülüb, geopark ərazisinin müxtəlifprofilli xəritələri tərtib edilib. Əlavə obyektlər üçün təsdiq edilmiş formada pasportlar hazırlanıb.

Diqqətə çatdırılıb ki, 16 adda bitki qarışığının dərman paketlərinin hazırlanması, "Şorsu" palçığının və quru qalığının istehsalı, satışı işi davam etdirilib. Propolis, çaytikanı yağı, alma sirkəsi, gülab istehsal edilib, paketlənmiş zəfəran qurusu, müxtəlif meyvə quruları, kompot, cem və şirələr hazırlanıb. İl ərzində dünyanın 20-dən artıq ölkəsinin elm, təhsil müəssisəsi və mütəxəssisləri ilə sıx elmi əlaqələr davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin AMEA Naxçıvan Bölməsinə hamiliyə verilmiş 10 ixtisas üzrə təhsil alan tələbələrinin iştirakı ilə elmi-praktik seminarlar keçirilib. Bölmənin 45 elmi dərəcəli əməkdaşı 8 fənn üzrə nümunəvi dərslər tədris edib, 7 elmi əməkdaş 8 interaktiv dərs aparıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birlikdə həyata keçirilən "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində 50 şagird bölmə alimləri tərəfindən hamiliyə götürülərək, fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb edilib və uğurlu nəticələr qazanıb.

Akademik 21 sentyabr 2021-ci ildə AMEA Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müşavirədə verdiyi tapşırıqlardan söz açıb. Elm festivalının keçirilməsi, rayonların tarixinin işlənilməsi, Naxçıvanın qədim türk yurdu olması ilə bağlı tədqiqatların əhatə dairəsinin genişləndirilməsi, çoxcildlik "Naxçıvan etnoqrafiyası"nın hazırlanması, arxeoloji ekspedisiyaların davam etdirilməsi, "Naxçıvan folkloru", Naxçıvanın müasir ədəbi mühitinin tədqiqi, xalq deyimlərinin toplanılması, tətbiqyönümlü araşdırmaların aparılması, qədim əlyazma və çap kitablarının tədqiqi və nəşri, eləcə də digər mühüm vəzifələrin müəyyənləşdirildiyini söyləyib.

Məruzə ətrafında çıxışlar olub.



***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində 2021-ci ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib.***

Müşavirədə çıxış edən xidmət rəisi Mirzə Cəlilov qeyd edib ki, xidmət hər il olduğu kimi, ötən il də öz işini günün tələbləri səviyyəsində qurub, verilən tapşırıqları ardıcıl surətdə həyata keçirib. Belə ki, bəhs olunan dövrdə yaşayış yerinin dəyişdirilməsi ilə əlaqədar 155 nəfər hərbi qeydiyyata düşmək, 343 nəfər isə hərbi qeydiyyatdan çıxmaq üçün müraciət etmişdir. Hərbi vəzifəlilərin müraciətləri vaxtında icra olunmuşdur. Azərbaycan Respublikası Silahlı Qüvvələrinə hərbi xidmətə qəbul ilə əlaqədar il ərzində daxil olmuş 429 müraciət əsasında xidmətin rayon, (şəhər) idarə və şöbələri üzrə 20 nəfər zabit, 21 nəfər gizir, 368 nəfər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, 20 nəfər isə qadın hərbi qulluqçu ehtiyatdan çağırılaraq hərbi-həkim komissiyasından keçirilməklə həqiqi hərbi xidmətə göndərilmiş, 2522 nəfər Silahlı Qüvvələrdən ehtiyata buraxıldığına görə qeydiyyata alınmışdır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 may tarixli 50 №-li Qərarına uyğun olaraq çağırışçıların və hərbi vəzifəlilərin dövlət orqanlarında və təşkilatlarda hərbi uçotun və təxsisetmə (bron) vəziyyətinin yoxlanılması həyata keçirilmişdir. Xidmətin rayon, (şəhər) idarə və şöbələri üzrə il ərzində nəzərdə tutulmuş 447 idarə, müəssisə və təşkilatlar tam yoxlanılmışdır.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar hərbi xidmətdən tərxis olunan şəxslərin məşğulluğunun təmin edilməsi və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon (şəhər) idarə və şöbələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə hərbi xidmətdən tərxis olunmuş şəxslərlə tədbirlər keçirmişdir. 2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması ilə əlaqədar qəbul edilmiş Dövlət proqramının icrası çərçivəsində müddətli həqiqi hərbi xidmətini başa vuraraq Silahlı Qüvvələrdən ehtiyata tərxis olunan 1929 nəfərin işlə təmin olunması məsələlərinin həlli ilə əlaqədar adlı siyahıları tərtib edilərək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmiş və həmin gənclərin məşğulluqlarının təmin edilməsi nəzarətdə saxlanılmışdır.

Vurğulanıb ki, xidmət bundan sonra da ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun davamçıları olan Prezident cənab İlham Əliyev və Ali Məclis Sədrinin tövsiyə və göstərişlərini rəhbər tutaraq Azərbaycan xalqının firavanlığı, ölkəmizin çiçəklənməsi naminə var qüvvəsi ilə çalışacaq və qarşısına qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə səy göstərəcək.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## Vakant vəzifələrin tutulması üçün yeni müsabiqələr keçirilib

*2021-ci ilin sonuncu ayında da Dövlət İmtahan Mərkəzi tərəfindən yeni müsabiqələrin elan edilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət, işə qəbul və attestasiya imtahanlarının keçirilməsi aidiyyəti üzrə davam etdirilib.*

Dekabrın 1-də 50 dövlət orqanını təmsil edən nümayəndələrin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Qulluqçularının Reyestri Proqramı təqdim olunub. Slayd vasitəsilə Dövlət Qulluqçularının Reyestrinin aparılması qaydaları haqqında məlumat verilib. Yeni proqrama hesabatlar modulu əlavə edilib və axtarış modulu təkmilləşdirilərək 29 kateqoriya üzrə axtarış imkanı yaradılıb. Hesabatlar modulunda statistik məlumatlar, təsnifat üzrə, dövlət qulluqçularının sayı, dövlət orqanlarının siyahısı haqqında, habelə dövlət qulluqçularının stajı üzrə məlumatlar altbölmələri əlavə edilib. Reyestrin aparılmasına dair anket forması təkmilləşdirilib və yeniliklər əlavə olunub. Dövlət Qulluqçularının Reyestrində aparılan yenilənmələrə uyğun olaraq növbəti ixtisas dərəcələrinin verilməsi haqqında məlumatı əks etdirən bölmə, arayış və sənədlər altbölməsi yaradılıb. Sənədlər altbölməsi dövlət qulluqçusunun elektron sənədlərinin toplanması, istifadəsi və arxivləşdirilməsi üçün əlverişli imkan yaradır.

14-17 dekabr tarixlərdə müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün



Dövlət İmtahan Mərkəzi tərəfindən elan edilmiş növbəti müsabiqənin test imtahanları keçirilib. Bu il də ənənəvi qaydada ikincisi keçirilən müsabiqəyə 160 vakant vəzifə çıxarılıb. 112 vəzifə üzrə 449 namizədin qeydiyyatdan keçdiyi müsabiqədə 433 namizəd iştirak edib. Ən sıx müsabiqə vəziyyətinin ingilis dili, ibtidai sinif və riyaziyyat müəllimliyi üzrə qeydə alındığı imtahanda 90 vəzifə üzrə 277 namizəd müvəffəqiyyət qazanıb.

Dekabrın 24-də Naxçıvan Muxtar Respublika Prokurorluğunun 11 əməkdaşının iştirakı ilə növbəti attestasiya imtahanı keçirilib. Dövlət orqanlarında çalışan əməkdaşların peşəkarlığının yoxlanılması məqsədilə keçirilən imtahanda 10 namizəd müvafiq keçid balını toplayıb.

Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş müsabiqənin test mərhələsində uğur qazanmış namizədlərin müsahibə mərhələsinə sənəd qəbulu dekabrın 15-nə qədər davam edib. Test imtahanının nəticələrinə əsasən 267 namizədin uğur qazandığı müsabiqədə 253 namizəd müsahibə mərhələsində iştirak etmək üçün sənədlərini təqdim edərək qeydiyyatdan keçib. Həmçinin əvvəlki müsabiqələrdə qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 8 namizədin müraciəti nəzərə alınaraq onların müsahibə mərhələsində iştirakları təmin olunub.

Dekabr ayı ərzində mərkəz tərəfindən növbəti müsabiqələrin elan olunması da diqqətdə saxlanılıb. Dekabrın 7-də müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, dekabrın 17-də Səhiyyə Nazirliyinin tabeliyindəki müəssisələrə işə qəbul, dekabrın 22-də isə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinə işə qəbul üçün müsabiqələr elan edilib. Dövlət musiqi təhsili müəssisələrinə sənəd qəbulu yanvarın 7-də başa çatıb. Səhiyyə Nazirliyinin tabeliyindəki müəssisələrə və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinə işə qəbul üçün elan olunmuş müsabiqələrə sənəd qəbulu müvafiq olaraq 17 və 22 yanvar tarixlərinə qədər davam edəcək.

Dekabr ayında Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunmuş müəllimlərin sertifikasiya imtahanları üçün hazırlıq kurslarında 294, dövlət qulluğu imtahanlarının müsahibə mərhələsi üçün hazırlıq kursunda 54, müəllimlərin sertifikasiyası üçün keçirilən sınaq imtahanlarında isə 724 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti davam etdirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən dekabr ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 15 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi, 1 vergiödəyicisinə məxsus pul vəsaitlərinin uçotdan yayındırılması, 1 şəxsdə "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığortahaqqının ödənilməsi haqqında qəbz" alınmaması, 1 vergiödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması və 11 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Naxçıvanlı sahibkarların beynəlxalq imkanları artıb

***Muxtar respublika iqtisadiyyatının hazırkı inkişaf mərhələsində qarşıda duran vacib vəzifələrdən biri də beynəlxalq tələb və formalara cavab verən yüksəkkeyfiyyətli məhsulların istehsalının təşkili və regionun ixrac potensialının gücləndirilməsidir. Bu məsələ həm də istənilən ölkənin xarici ticarət tərəfdaşları ilə münasibətlərinin daha sürətlə inkişaf etməsinə, beynəlxalq əməkdaşlığın daha da dərinləşməsinə təsir göstərən əsas faktorlar sırasında yer alır. İstər Azərbaycanda, istərsə də xarici ölkələrdə sahibkarlarımızın istehsal etdikləri məhsulların sərgilənməsi, xarici iş adamları ilə qarşılıqlı münasibətlərin yaradılması, əməkdaşlıq əlaqələrinin genişləndirilməsində əsas məqsəd yerli məhsullarımızı təbliğ etmək və həmin məhsulların ixrac imkanlarının artmasına nail olmaqdır.***





Bu cür beynəlxalq tədbirlər 2021-ci ildə də davam etdirilib. Fevral ayının son həftəsində Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində təşkil olunmuş "Gulfood-2021" Beynəlxalq qida sərgisində muxtar respublikanın ixrac potensialı geniş şəkildə təbliğ olundu. Sərgidə "Made in Azerbaijan" vahid ölkə stendi altında muxtar respublikanın iri sahibkarlıq subyektlərindən olan "Ləzzət Qida Sənaye", "Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli cəmiyyətlərinin və Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin istehsal etdikləri müxtəlif çeşidlərdə vafli, peçenye, lokum, araxis, "TeaNati" çayları, limonadlar, ağ və qara günəbaxan tumları, həmçinin qazlı və qazsız "Sirab" və "Badamlı" mineral suları olmaqla, ümumilikdə, 115 çeşiddə məhsul nümayiş edilib.

Digər bir mühüm sərgi isə 30 mart-2 aprel 2021-ci il tarixlərdə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilmiş "Mosbuild-2021" 26-cı Beynəlxalq tikinti və təmir materialları sərgisi olub. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının iştirak etdiyi sərgidə vahid ölkə stendi altında şirkətin istehsalı olan sadə və kompozit polipropilen borular, qapı-pəncərə üçün plastik profillər və alüminium, panel radiatorlar nümayiş etdirilib.

Oktyabr ayında işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesinin effektivliyini artırmaq, bu istiqamətdə özəl-dövlət tərəfdaşlığını möhkəmləndirmək, bölgənin inkişafı üçün ən cəlbedici və səmərəli məhsul, layihə və həlləri nümayiş etdirmək məqsədilə "Rebuild Karabakh" – Azərbaycan Beynəlxalq "Qarabağın bərpa, yenidənqurma və inkişafı" sərgisi keçirilib. Naxçıvan Muxtar Respublikası da bu sərgiyə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqına daxil olan "Naxçıvan Sement Zavodu", "Naxçıvan Tikinti Materialları İstehsalat Kompleksi" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətləri tərəfindən 10 növdə, 25 çeşiddə məhsul çıxarıb.

Ümumilikdə, 2021-ci ildə BƏƏ, Rusiya, Pakistan, Özbəkistan, Türkiyə, Gürcüstan, Qətər və digər ölkələrlə 18-i sərgi olmaqla, keçirilən 29 beynəlxalq tədbirdə 70 halda sahibkarlıq subyektinin 97 nümayəndəsi iştirak edib.

Sərgilər naxçıvanlı sahibkarlar üçün yeni üfüqlər açıb. Bu sərgilərdə yerli sahibkarların iştirakı həm də Naxçıvanda istehsal edilən yüksəkkeyfiyyətli məhsulların təbliği və yeni bazarların tapılmasına zəmin yaradıb. Hər kəs sərgilərə çıxarılan məhsullarımız vasitəsilə son illərdə muxtar respublikanın necə inkişaf etdiyinin şahidi oldu. Bu inkişaf və tərəqqi isə asanlıqla əldə olunmamışdır. Qazanılan uğurların bir sıra səbəbləri vardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə həyata keçirilən iqtisadi islahatlar sahibkarlığın inkişafına güclü təkan vermiş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına və iqtisadiyyatın inkişafına nail olunmuşdur. Son illərdə muxtar respublikada ardıcıl və sistemli olaraq iqtisadi islahatların aparılması, dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması da belə bir inkişaf prosesinə təsirsiz qalmayıb. Sahibkarlığın inkişafında kredit siyasətinin düzgün həyata keçirilməsi bu sahədə dövlət nəzarətinin gücləndirilməsi, şəffaflığın təmin olunmasını da qazanılan uğurların səbəbləri sırasına daxil etmək olar. Bir fakt qeyd etmək yerinə düşər ki, 2021-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş kreditlərin həcmi 7 milyon 744 min manatdan çox olmuşdur. Sahibkarlıq fəaliyyətinin davamlı inkişaf dinamikasını xarakterizə edən mühüm bir fakt ondan ibarətdir ki, bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Bəli, bütün bu inkişaf bu gün imkan verdi ki, naxçıvanlı iş adamları beynəlxalq tədbirlərdə geniş bir heyətlə iştirak etsin və muxtar respublikamızın iqtisadi yüksəlişini, sənayeləşmə yolunda qətiyyətli addımlarını yüksəkkeyfiyyətli, beynəlxalq standartlara uyğun məhsullarla göstərə bilsinlər. Əlbəttə, bu gün dövlətin diqqət və qayğısı nəticəsində muxtar respublikada belə müəssisələr yaradılmasaydı, bu müəssisələrdə keyfiyyətli məhsul istehsal edilməsəydi, yəqin, hər hansı beynəlxalq sərgidə iştirak etməkdən də söhbət gedə bilməzdi.

Qarşıdan isə cari ilin fevral ayında Dubay və Moskva şəhərlərində keçirilməsi nəzərdə tutulan "Gulfood-2022" və "Prodexpo" Beynəlxalq Qida sərgiləri gəlir. Sahibkarlarımızın böyük heyətlə bu tədbirlərdə iştirakı nəzərdə tutulub. Ümidvarıq ki, bu tədbirlər də iş adamlarımız üçün yeni üfüqlər açacaq, muxtar respublikamızın ixrac potensialının daha da artırılmasına kömək edəcəkdir.

**Çinarə BALAYEVA**
*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi*

---

***İnkişaf etmiş ölkələrdə özəl sektorun əsasını ailə təsərrüfatları və kiçik sahibkarlıq subyektləri təşkil edir. Bu cür təsərrüfatlar özünüməşğulluğun nümunəvi modeli sayılmaqla yanaşı, həm də böyük sahibkarlıq subyektlərinin yaradılmasına gedən yolun başlanğıcı hesab edilir. Bu mənada, ailə təsərrüfatlarının yaradılması dövlətimizin marağındadır və bu cür fəaliyyətin nəticəsi ölkəmizin, eləcə də muxtar respublikamızın iqtisadi inkişafında mühüm rola malikdir.***

*Ailə təsərrüfatlarımız*

# Dağ kəndinin zəhmətkeş ailəsi




Muxtar respublikada arıçılığın inkişafı üçün münbit təbii şərait var. Son illərdə dövlətin bu sahənin inkişafına göstərdiyi hərtərəfli qayğı və arıçılığın gəlirli sahə olması bu işə marağı daha da artırıb. Unutmamalıyıq ki, arıçılıq həm də muxtar respublikada qədim ənənələrə malik məşğuliyyət sahələrindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" arıçılıqda xeyli uğurlar qazanılmasına imkan verib. Proqramda arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin, qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, kənd əhalisinin məşğulluğunun artırılması, arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması kimi bir çox vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunda da arıçılıq təsərrüfatı üçün geniş şərait vardır. Hazırda rayonda 574 təsərrüfatda 12 min 939 arı ailəsi mövcuddur.

Rayonun Aşağı Yaycı kəndində də arıçılıqla məşğul olanlar çoxdur. Onlardan biri – qonağı olduğumuz Nəcəflilər ailəsi 20 ildir ki, arıçılıqla məşğuldur. 120 arı ailəsinə qulluq edən ailə təsərrüfatı başçısı Əli dayı dedi:

– Arıçılıq xüsusi diqqət tələb edən işdir, hər arı ailəsinə gərək ayrıca qulluq edəsən. Nə qədər yaxşı qulluq olarsa, məhsul da bir o qədər yaxşı olar. İl ərzində arıçılıqda görülən işlər isə 4 dövrə bölünür: erkən yaz, beçə, bal və ya məhsul dövrləri, nəhayət, qış dövrü. Qışlama dövrünü yaxşı keçirən, yaxşı qidalanan arı ailəsi ili daha yaxşı yola verir, nisbətən zəif qidalanmış ailələr isə tez xəstəliyə tutulur və böyük bir qismi tələf olur. Xəstəliyə tutulmuş arıları yuvadan ayrılmazdan əvvəl mütləq müayinə etmək, zəif düşmüş arı ailələrinin qidalanmaları üçün pətəklərinə ballı çərçivə qoymaq lazımdır. Əgər ehtiyat bal yoxdursa, yem tələbatını şəkər şərbəti ilə də tamamlamaq olar. Maraqlısı odur ki, son dərəcə təmiz xislətli unikal varlıq yaxşı qida yeri tapa bildiyi halda, növbəti gün öz ailəsini də tapdığı ünvana aparır. Arı uçduğu istiqamətdə, yolu azmadan geri qayıdır, tanıdığı isə iki şey var: öz yeşiyi və xidmətçisi.



Gördüyümüz iş əhalini keyfiyyətli qida məhsulları ilə təmin etməyə imkan verməklə yanaşı, gəlirimizi də artırır. Ötən ilin sonlarında Şərur şəhərində keçirilən "Ailə təsərrüfatı məhsulları" satış yarmarkasında da iştirak etdim və burada 50 kiloqramdan artıq bal satdım. Yarmarkaya çıxardığım süzmə bal, qaymaqlı bal, doğranmış şan bal, ramka balı, güləm, bərəmum alıcılar tərəfindən rəğbətlə qarşılandı.

Haqqında bəhs etdiyimiz ailə təsərrüfatçısı həm də meyvəçiliklə məşğul olur. Əli dayı ilə söhbətimizə meyvə bağında davam etdik. Deyir ki, 1600 metr həyətyanı sahədə 240 ədəd meyvə ağacı əkmişəm. Danışığından da bəlli idi ki, bu kənd adamı torpağa qəlbən bağlanıb. Bu illər ərzində nazını çəkdiyi bu qiymətli sərvət onun gün-güzəranını xeyli yaxşılaşdırıb. Əkdiyi alma, armud, ərik, şaftalı, hülü ağaclarından mövsümdə xeyli qazanc götürür.

– Bilirsiniz ki, Aşağı Yaycı dağlıq kənddir. Əvvəllər su problemimiz olduğu üçün əkib-becərə bilmirdik. İndi, şükürlər olsun ki, dövlətimiz həmişə təsərrüfatçının yanındadır. İndi bizim bu əlçatmaz yerlərə daimi su çıxarılır. Bunun nəticəsidir ki, illərlə əkilməyən sahələr artıq məhsul verir. Qış aylarında bazarda satmaq üçün məhsulumuzun bir hissəsini soyuducu anbarlarda saxlayırıq. Bununla da əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının bir hissəsinin ödənilməsində bizim də payımız olur. Müştərilər hər zaman məhsulumuzu həvəslə alırlar. Necə deyərlər, ağac barıyla tanınar.

Müsahibimiz gələcək planlarından da danışaraq bildirdi ki, dövlətimiz tərəfindən ailə təsərrüfatçılarına verilən güzəştli kredit götürmək istəyir. Bunun hesabına həm arıçılıq, həm də meyvə təsərrüfatını genişləndirmək fikrindədir.

*Bəli, bu gün hər bir kəndli göstərilən dövlət dəstəyini öz üzərində hiss etdikcə daha çox zəhmətə qatlaşır, torpağa sıx tellərlə bağlanır. Görülən işlərdə əsas məqsəd bol məhsul istehsal etməklə ərzaq təhlükəsizliyi yaratmaq və beləliklə, ərzaq təhlükəsizliyinə, ümumilikdə, ölkənin inkişafına töhfə verməkdir.*

**Heydər MƏMMƏDOV**
*"Şərurun səsi" qəzetinin redaktoru*

---

# Torpaqların su təminatı yaxşılaşdırılır

*Muxtar respublikada müasir suvarma sistemlərinin quraşdırılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət 2021-ci ilin dekabr ayında da həyata keçirilmiş, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması diqqətdə saxlanılmışdır.*

Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün dekabr ayında bir sıra tədbirlər görülmüş, su istifadəçilərinə 7,63 milyon kubmetr su verilmiş, bunun müqabilində 6 min 154 hektar torpaq sahəsi suvarılmışdır. Bu dövrdə 0,82 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmiş, 13,2 kilometr beton və torpaq kanal, 22,42 kilometr ara arxlar, 3,3 kilometr kollektor lildən təmizlənmiş, 1,9 kilometr içməli su, 0,33 kilometr kanalizasiya, 5,86 kilometr suvarma boru xətti, 0,8 kilometr təzyiqli boru xətti, 0,02 kilometr kaptaj tikilmişdir. 1,71 kilometr mövcud içməli su, 0,34 kilometr kanalizasiya xətlərində, 1,99 kilometr suvarma boru xətlərində, 3,17 kilometr təzyiqli boru xətlərində, 0,34 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Babək rayonunun Uzunoba gölü ətrafında yeni tikilmiş bağ evlərini içməli su ilə təmin etmək məqsədilə təzyiqli su xəttini qidalandıran 2 ədəd "MULTİ 35 8N" markalı nasos quraşdırılmış, nasos stansiyası üçün bina tikilmişdir. Qeyd olunan dövrdə Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 71 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə Culfa rayonunda sağ sahil kanalında təmir işlərinə başlanılmış və kanalın 100 metr hissəsində dəmir-betonla təmir işləri aparılmışdır. Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinə aid 340 hektar torpaq sahəsində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, ərazidə 0,75 kilometr ana xətt, 1,56 kilometr paylayıcı boru xətti çəkilmiş, 14 hovuz və hidrant quraşdırılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndinin 2100 hektar əkin sahəsini suvarma suyu ilə təmin etmək məqsədilə Araz çayından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi davam etdirilmiş, nasos binasının və nasosların özüllərinin dəmir-betonla tikintisi və 3 nasos ramasının quraşdırılması işləri başa çatdırılmış, binanın tikintisi üçün hörgü işləri aparılmışdır. Ərazidə 0,4 kilometr təzyiqli boru xətti quraşdırılmışdır. Tikinti işləri davam etdirilir.

Muxtar respublikada su təminatının yaxşılaşdırılmasında subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunmuşdur. Dekabr ayı ərzində 42 subartezian quyusunda təmir-bərpa işləri aparılmış, 1 yeni subartezian quyusu istifadəyə verilmişdir. 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində və Sədərək rayonunda su və kanalizasiya şəbəkəsinin, Kəngərli rayonunda su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, Qarabağlar kəndində 2 subartezian quyusunun tikintisi başa çatdırılmışdır. İçməli su təchizatının yaxşılaşdırılması məqsədilə Sədərək rayonunun Dəmirçi kəndində tikinti işləri davam etdirilmişdir. Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlifdiametrli borularla 11,91 kilometr içməli su xətti quraşdırılmış, 312 evin su xəttinə birləşməsi aparılmışdır.

2021-2022-ci illərin payız-qış mövsümü ilə əlaqədar Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə cəmiyyətdə hazırlanmış tədbirlər planının icrası üzrə işlər davam etdirilmişdir.

*Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti*

Ötən ilin, bizim elin uğurları

# Naxçıvanda uğurla həyata keçirilən gənclər siyasəti yeni mərhələyə qədəm qoyub

*Ölkəmizin uğurlu inkişaf siyasəti bütün sahələrdə nailiyyətlər əldə edilməsinə zəmin yaradıb. Bu prosesin davamlı xarakter almasında gənclərin də əməyi böyükdür. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və ictimai-siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin vacib qüvvəsinə çevrilib. Gənclər siyasətinin əsas məqsədi intellektual, fiziki cəhətdən sağlam və vətənpərvər gənclər yetişdirməkdir. Bu mənada, ulu öndər Heydər Əliyevin aşağıdakı tövsiyəsi gənclərin fəaliyyət proqramına çevrilib:* ***“Gənclər özlərini Azərbaycanın gələcəyi naminə layiqincə hazırlamalıdırlar. Hər bir gənc öz yolunu müstəqil Azərbaycan Respublikasının həyat yolu kimi qəbul etməlidir. Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən ibarət olmalıdır”.***

Gənclərin ictimai-siyasi fəallığının yüksəlməsi, onlara öz xalqı və dövlətinin gələcəyi üçün məsuliyyət hisslərinin aşılanması, gəncliyin mənəvi tərbiyəsinin, siyasi mədəniyyətin yüksəldilməsi vətəndaş cəmiyyətinin qurulması üçün zəruri şərtlərdən biri kimi yeni demokratik münasibətlərin formalaşması ilə sıx bağlıdır. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və yerinə yetirilməsi nəticəsində hər bir muxtar respublika gənci elm, mədəniyyət, idman, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir. Bu siyasət cəmiyyətin mənafeyi naminə gənclərin potensialından daha dolğun istifadə edilməsi üçün sosial-iqtisadi, siyasi-hüquqi, təşkilati şərait və təminatlar yaratmaq məqsədi daşıyır. Qloballaşma dövründə milli maraqlara və dəyərlərə söykənən gənclər ölkədə gedən proseslərdə həm iştirakçı, həm də bəhrələnən sosial qrup kimi qəbul edilir. Bunun nəticəsidir ki, gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib; bütün sahələrdə gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib, könüllülük hərəkatı genişlənib. Naxçıvanın bir sıra beynəlxalq tədbirlərə, konfranslara ev sahibliyi etməsi, bu tədbirlərdə gənclərin inkişafına böyük önəm verilməsi isə diyarımızın artan nüfuzunun və qədim Naxçıvanda gəncliyə qayğının daha bir göstəricisidir.





Hər il olduğu kimi, geridə qoyduğumuz il ərzində də gənclərin intellektual inkişafı, yaradıcılıq meyillərinin aşkarlanması, əqli mülkiyyətin yüksək dəyər olduğunu təbliğ etmək vacib məsələlərdən biri olub. Keçirilən tədbirlərin də əsas məqsədi bu məsələlərə ciddi önəm verməkdir. Belə ki, Heydər Əliyev adına Hərbi Liseyin kursantları və gənclər arasında ingilis dilində, orta ixtisas təhsili müəssisələrinin tələbələri, gənc dövlət qulluqçuları və yeniyetmələr arasında “Xəmsə” milli intellektual oyunları, Naxçıvan şəhərindəki Sahil Parkında “Axtar tap” intellektual oyunu və “Xəmsə” milli intellektual oyunu üzrə “Yay kuboku” uğrunda muxtar respublika birincilikləri, sağlamlıq imkanları məhdud yeniyetmələr arasında “Vətəni tanı!”, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti arasında “Nə? Harada? Nə zaman?” və “Vətəni tanı!” intellektual oyunları, Azərbaycanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən “Poliqon” strateji intellekt oyunu üzrə IV Universiadanın Naxçıvan Muxtar Respublikası üzrə mərhələsinin təşkili yaddaqalan olub.

Dünyada baş verən ictimai-siyasi hadisələr dəyişdikcə artıq gənclər qarşısında duran problemlər və onların həlli yolları da dövrün tələbləri ilə aparılır. Bu problemləri müasir dünya kontekstində həll edə bilmək üçün Naxçıvan gənclərinin öz fəaliyyətlərində daim aktiv və yararlılıq prinsipləri ön plana çıxır. Bu istiqamətdə gənclərimizin İkinci Qarabağ müharibəsi zamanı arxa cəbhədəki fəaliyyətini, xüsusilə qeyd edə bilərik.

Onların əsl vətəndaş kimi cəmiyyətə hazırlanmasında keçirilən tədbirlərin əhəmiyyətli rol oynaması danılmazdır. Geridə qoyduğumuz ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən belə tədbirlərin keçirilməsinə ciddi önəm verilib, gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi, tariximizin unudulmaması və gələcək nəsillərə çatdırılması məqsədilə bir sıra tədbirlər təşkil olunub. Belə ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən “20 Yanvar – şəhidlik zirvəsi” mövzusunda keçirilən onlayn konfransda naxçıvanlı gənclərin iştirakı təmin edilib, onların Vətən müharibəsi iştirakçıları ilə görüşləri, “Naxçıvan” Təlim Mərkəzində gənclər arasında “Hədəf” atış təlimi, ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan çağırışyaşlı tələbələrin ordu sıralarında hərbi xidmətə hazırlanmasına köməklik göstərmək məqsədilə tələbələr arasında “Vətən naminə” hərbi-idman oyunu, “Zəfərə gedən yol və 44 günlük müharibə” devizi altında kursantlar arasında “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib, “Naxçıvan” Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Vətən müharibəsi qəhrəmanları – şəhid polkovnik-leytenant Anar Əliyev və kapitan Nihad Babayevin doğum gününə həsr olunmuş xatirə gecəsində gənclərin iştirakı təmin edilib, gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi, fiziki dözümlülüyün artırılması məqsədilə “Marş irəli” adlı hərbi layihənin dördüncü mövsümü təşkil olunub. Eyni zamanda 27 sentyabr – Anım Günü ilə əlaqədar Naxçıvan şəhərində və rayonlarda gənclərin Şəhidlər xiyabanlarına yürüşü və şəhid məzarlarına ziyarətləri təşkil edilib, “Bayraq mənliyimdir” adlı rəsm müsabiqəsi keçirilib, gənclərə vətənpərvərlik mövzusunda filmlər nümayiş olunub, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən “Qəhrəmanlar unudulmur!” adlı videoçarxlar hazırlanıb və sosial şəbəkələrdə paylaşılıb.

Ötən il iyulun 25-dən 31-dək Naxçıvanda Azərbaycan Respublikası Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı ilə keçirilən Azərbaycan və Türkiyə gənclərinin növbəti beynəlxalq “Zəfər düşərgəsi” hər iki dövlətin gəncləri arasında dostluq, əməkdaşlıq əlaqələrini daha da gücləndirib. Düşərgənin təşkilinin əsas məqsədi 44 günlük Vətən müharibəsində zəfərin, eyni zamanda da ölkələrimizin ortaq tarixinin, mədəniyyətinin hər iki qardaş ölkənin gəncləri arasında geniş şəkildə təbliğ olunmasıdır. Tədbir üçün Naxçıvanın məkan seçilməsinin xüsusi əhəmiyyəti isə buranın həm Azərbaycanla Türkiyəni yaxınlaşdıran bir diyar olması, həm də Türk dünyasında əhəmiyyətli mövqeyə malik olması ilə bağlıdır. Düşərgə çərçivəsində hər iki ölkənin gəncləri muxtar respublikanın tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri ilə yaxından tanış olublar.



Bu gün dövlət gənclər siyasətinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən məqsədyönlü şəkildə davam və inkişaf etdirilməsi gənclərin qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıqlarını xeyli artırıb. Muxtar respublika rəhbəri gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə bir sıra fərman və sərəncamlar imzalayıb. “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi isə əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi ilə yanaşı, həm də gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli-mənəvi dəyərlərin qorunması, hərbi-vətənpərvərlik hissinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliğ edilməsi istiqamətində çox mühüm əhəmiyyətə malikdir. Gələcəyə inkişaf konsepsiyası baxımından hazırlanan proqram bunu deməyə əsas verir ki, muxtar respublika rəhbəri gənclərin vətənpərvərlik ruhunda, eləcə də innovativ düşüncəli və bilikli yetişməsinə önəm verdiyi kimi, onların ictimai proseslərdə fəal iştirakına da diqqət ayırır.

Gənclər siyasətinin bir istiqaməti də bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, müxtəlif sahələrdə təcrübə mübadiləsinin aparılmasıdır. Bütün bunlar isə elmli, savadlı, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə hesablanmış addımlardır. Bu gün ali və orta ixtisas təhsili müəssisələrində yüksək standartlara uyğun maddi-texniki bazanın yaradılması, müasir tədris metodlarının tətbiq edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir, rayon mərkəzləri ilə yanaşı, kənd yaşayış məntəqələrində müasir tələblərə cavab verən məktəblər tikilir, tədris müəssisələri yeni avadanlıqlarla təchiz edilir, gənclərin yüksək biliyə yiyələnməsi, onların maraqlarının təmin olunması sahəsində ciddi işlər görülür.

Təbii ki, muxtar respublika gəncləri üçün ən önəmli olan məsələ onlara bütün sahələrdə əlverişli mühitin yaradılmasıdır. Bu isə, ilk növbədə, güclü cəmiyyətin qurulmasına imkan verir. Belə olan halda gənclər öz potensiallarını hərəkətə gətirə bilir, özlərini daha müasir cəmiyyətdə hiss edirlər. Nəticədə, dövlət idarəçiliyi təkmilləşdirilməklə gənclərin üzərinə mühüm vəzifələr düşür: onlar yeniləşmənin əsas daşıyıcılarına çevrilirlər. Bu gün diyarımızın siyasi, eyni zamanda sosial strukturuna nəzər yetirsək, gənclərin yüksək vəzifələrdə çoxluq təşkil etdiyini görərik. Bu isə Naxçıvanda ulu öndərin siyasi kursunun layiqincə davam etdirildiyinin göstəricisidir. 1999-cu ildə Gənclərin II forumunda çıxışı zamanı ulu öndər Heydər Əliyev gənclərə müraciətdə demişdir: ***“Siz Azərbaycanın bu gününə və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq”.***

*Sürətlə inkişaf edən diyarımızda sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakı günün reallığıdır. Təbii ki, bu reallıq fonunda dövlətin gənclər üzərində diqqət və qayğısı mühüm rol oynayır.*

**Ceyhun MƏMMƏDOV**

## Gənclərin asudə vaxtı səmərəli təşkil olunur

*Ötən ay ərzində gənc nəslin vətənpərvər ruhda formalaşması, intellektual səviyyəsi və dünyagörüşünün artırılması, yeni bacarıqlara yiyələnməsi və asudə vaxtının səmərəli təşkili məqsədilə bir sıra tədbirlər həyata keçirilib.*

5 dekabr – Beynəlxalq Könüllülər Günü münasibətilə film nümayişi, motivasiya yönümlü təlim, eləcə də peyntbol və voleybol yarışları təşkil olunub, il ərzindəki könüllülük fəaliyyəti ilə fərqlənən gənclər mükafatlandırılıblar. Gənc nəslin vətənpərvər ruhda böyüməsi, Azərbaycançılıq ideologiyasına, milli dövlətçilik prinsiplərinə sadiq vətəndaş kimi formalaşması istiqamətində könüllü gənclərin Heydər Əliyev Muzeyinə ekskursiyası təşkil edilib, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Orta İxtisas Polis Məktəbi və Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün “Şuşa, sən azadsan!” sənədli filmi nümayiş olunub. Şəhidlərimizin ruhuna ehtiram, ailələrinə mənəvi dəstək göstərmək və gənclərin qəhrəmanlarımızı daha yaxından tanımasına, vətənpərvərlik ruhunda formalaşmasına zəmin yaratmaq məqsədilə bir qrup könüllü gənc tərəfindən Şahbuz rayonunda yaşayan şəhid ailələri ziyarət olunub, Əlahiddə Ümumqoşun Ordunun “N” hərbi hissəsində xidmət edən əsgərlərlə görüş keçirilib, onlara sovqat təqdim edilib.

Gənc nəslin şəxsi inkişafı və karyera imkanlarının yaradılması istiqamətində ardıcıl işlər görülür, məqsədyönlü addımlar atılır. “Maliyyə məktəbi” layihəsinə uyğun olaraq “Gələcək üçün maliyyə” təlimi bu dəfə Sədərək rayon gəncləri üçün təşkil edilib, Naxçıvan şəhərində isə “Workshop” layihəsi çərçivəsində növbəti proqramlaşdırma təlimi reallaşıb. Kəngərli rayonunda gəncləri muxtar respublikada gedən inkişaf prosesləri ilə bağlı müfəssəl formada məlumatlandırmaq və mütaliə vərdişləri aşılamaq məqsədilə akademik İsmayıl Hacıyevin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı” kitabının təqdimatı keçirilib. Ayın sonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən gənclərlə görüş olub, ənənəvi olaraq ilin fəal gəncləri və idmançılar müxtəlif nominasiyalar üzrə mükafatlandırılıblar.

Hesabat dövründə bədən tərbiyəsi və idmanın inkişafı, bu sahədə kütləviliyin artırılması, yığma komandaların komplektləşdirilməsi, gənc nəslin sağlamlığının qorunması və asudə vaxtının səmərəli təşkili istiqamətində də tədbirlər həyata keçirilib. Ali Məclis Sədrinin müvafiq Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetində Gənclər və İdman Nazirliyinin hamiliyinə verilmiş ixtisaslar üzrə təhsil alan tələbələrlə görüş keçirilib. Gənclər və idman naziri “Turan” Fitnes Klubunun rəhbəri, bodibildinq üzrə ölkə birinciliyində muxtar respublikanı uğurla təmsil edərək çempion olan Həsənqulu Abdullayevlə görüşüb. Futzal, güləş, basketbol və boks üzrə muxtar respublika birincilikləri, idman federasiyaları arasında minifutbol birinciliyi, Region Liqasının Naxçıvan üzrə 3, 4 və 5-ci turları, voleybol üzrə böyüklərdən ibarət “Naxçıvan” və “Culfa” komandaları arasında yoldaşlıq görüşü və Naxçıvan şəhər məktəbliləri arasında “Şən startlar” əyləncəli idman oyunları təşkil olunub.

Ötən ay Türkiyənin Antalya şəhərində universal döyüş üzrə dünya çempionatında ölkəmizi təmsil edən Naxçıvan Kikboksinq Federasiyasının idmançıları, ümumilikdə, 4 qızıl və 3 gümüş medal qazanıblar, mükafatçılardan Röya Abdullayeva muxtar respublika idmanı tarixində dünya çempionu olan ilk qız idmançı adına sahib çıxıb. Gənc şahmatçı Nəsrin Babayeva Beynəlxalq Şahmat Federasiyası tərəfindən FIDE ustası adına layiq görülüb. Rusiyanın Nijnevartovsk şəhərində Sibirdə nəhəng neft və qaz yataqlarını kəşf etmiş həmyerlimiz Fərman Salmanovun xatirəsinə həsr olunan boks üzrə neft ölkələrinin XVIII dünya kubokunda Naxçıvan Boks Federasiyasının yetirməsi Eldar Quliyev bürünc medal qazanıb. Boccia üzrə “Seni Cup” Azərbaycan Çempionatı – “Zəfər Turniri”ndə iştirak edən paralimpiyaçılarımızdan Qafqaz Hüseynov BC3 kateqoriyası üzrə 1-ci, Fuad Qəribov isə BC1 kateqoriyası üzrə 2-ci yerlərə layiq görülüblər.

Muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üçün mütəmadi təşkil olunan ekskursiyalar davam etdirilib, Hava və Ekstremal İdman Növləri, Atıcılıq, Kikboksinq və Paralimpiya federasiyalarının təmsilçiləri müvafiq olaraq Naxçıvan Dövlət Xalça Muzeyi, “Əlincəqala” Tarix-Memarlıq Muzey Kompleksi, Ədəbiyyat Muzeyi və “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Əhalinin sağlamlığı diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini dekabr ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqətdə saxlanılıb.*



Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, COVID-19 virusuna qarşı sinovac və pfizer vaksini, mövsümi qrip xəstəliyinin qarşısını almaq məqsədilə qrip əleyhinə vaksin, Azərbaycan Respublikası Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublika Ağciyər Xəstəlikləri Dispanserinə DOTS proqramı üçün dərman preparatları, həmin institutdan ilkin vərəm intoksikasiyasını aşkarlamaq məqsədilə tuberkulin, Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublika Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə mübarizə şöbəsinə ARV terapiya üçün dərman preparatları gətirilib.

Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilib. Naxçıvan Muxtar Respublika Xəstəxanasında Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi tələbələrinin iştirakı ilə "Kardiologiyada yeniliklər" mövzusuna həsr olunmuş elmi-praktik konfrans keçirilib. 3 həkim Türkiyə Respublikasına, 1 həkim Bakı şəhərinə kurs, 2 həkim və 12 orta tibb işçisi Naxçıvan şəhər tibb müəssisələrində iş yerində təcrübə keçməsi üçün göndərilib. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 43 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib.

Dekabr ayında həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini uğurla davam etdiriblər. Akademik M.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasının 21 nəfərdən ibarət həkim heyəti Şərur Rayon Mərkəzi Xəstəxanasında əhalinin kütləvi müayinə və müalicəsini həyata keçirib, 1963 nəfər müayinə edilib, 126 nəfərdə cərrahi əməliyyat aparılıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının yaratdığı həkim briqadası Kəngərli rayonunun kəndlərində və Culfa rayonunun Bənəniyar kəndində 18 yataq xəstəsini və 76-80 yaşlı 99 nəfəri hərtərəfli tibbi müayinələrdən keçirərək dispanser qeydiyyata alıb. Xəstəxananın həkim briqadası, eyni zamanda Şahbuz və Kəngərli rayonlarında 61 uşaqda sünnət əməliyyatı yerinə yetirib. Xəstəxananın göz həkimləri rayonlarda şəkərli diabet xəstəliyindən əziyyət çəkən 129 xəstənin göz dibinin müayinəsini apararaq lazımi məsləhət və təyinatlar veriblər.

Dekabr ayında Naxçıvan Muxtar Respublika Xəstəxanasında Bakı şəhərindən dəvət olunmuş LOR həkimi tərəfindən 8 nəfərdə müayinə və cərrahi müdaxilə, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən isə 14 nəfərdə müayinə və cərrahiyyə əməliyyatı həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Naxçıvan şəhər 6 və 7 nömrəli məktəblərin təhsil işçilərindən 69 qadında süd vəzinin profilaktik müayinələri aparılıb, onlardan 5-də patologiya aşkar olunaraq mərkəzə ətraflı müayinə və müalicəyə dəvət ediliblər. Ağciyər Xəstəlikləri Dispanserinin həkim briqadası Babək rayonunun 23 tam orta məktəbində 772, Şahbuz rayonunun 9 tam orta məktəbində isə 284 məktəblini səyyar flüoroqrafiya müayinəsindən keçirib.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Naxçıvan Muxtar Respublika Xəstəxanasında xeyriyyə məqsədilə keçirilən qanvermə aksiyasında Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarının 20 donorundan götürülən 10 litr qan Mərkəzi Qan Bankına təhvil verilib.

Nazirliyin Tibbi yardımın təşkili şöbəsi və Elmi Tibbi Şura tərəfindən 73 xəstəliyə aid müalicə protokolu hazırlanaraq çap edilib, müxtəlifixtisaslı həkim və baş mütəxəssislərin birgə əməyi ilə hazırlanan protokollar profillər üzrə müvafiq səhiyyə müəssisələrinə paylanılıb, müayinə və müalicə prosesində həmin protokollara istinad olunması barədə baş həkimlərə tapşırıqlar verilib.

Muxtar respublika ərazisində 681 min 900 kvadratmetr sahədə dezinfeksiya işləri aparılıb, 1-5-ci sinif şagirdlərindən 4 min 410 uşağa mantu sınağı qoyulub, 203 uşaqda şübhəli, 242 uşaqda müsbət, 7 uşaqda isə hiperergiya aşkar edilib. Mantu sınağı müsbət çıxan 52 uşaq Ağciyər Xəstəlikləri Dispanserində müayinələrdən keçirilib, 37 uşağa profilaktika məqsədilə dərman preparatı verilib.

Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon şöbələri tərəfindən kənd sahə xəstəxanalarında, ambulatoriya və feldşer-mama məntəqələrində sanitar-gigiyenik və əks-epidemik tədbirlərə əməl olunması, peyvəndlərin icrasına nəzarət məqsədilə yoxlamalar keçirilib. 70 istehsal obyektində monitorinq aparılıb, 15 sahibkara xəbərdarlıq edilib. Naxçıvan şəhərində 8 tam orta məktəbin, "Naxçıvan" Universitetinin və Naxçıvan Dövlət Universitetinin bufetlərinin sanitar-gigiyenik vəziyyəti yoxlanılıb. Dekabr ayında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və digər müvafiq təşkilat nümayəndələrinin iştirakı ilə Mərkəzi Uşaq Xəstəxanasında yoxlama aparılıb və seminar keçirilib.

COVID-19 xəstəliyinə qarşı profilaktika tədbiri olaraq dekabr ayında 5433 nəfərdə I və 5063 nəfərdə II, 2190 nəfərdə III, 3 nəfərdə isə IV tur vaksinasiya aparılıb. Ay ərzində 1232 şagirdin helmintoza görə müayinəsi həyata keçirilib. Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası tərəfindən muxtar respublikanın tam orta məktəblərində ilk tibbi yardım və həkiməqədər yardım məqsədilə yuxarı sinif şagirdlərinə təlim-treninq keçirilib. Muxtar respublika səhiyyə müəssisələri tərəfindən qeydiyyatda olan 3050 nəfər 76-80 yaşlı əhalinin 2128-i tibbi müayinələrlə əhatə edilib.

2021-ci ilin dekabr ayında Bakı şəhərindən 29-u Darıdağ Arsenli Su Müalicəxanasına, 4-ü Duzdağ Fizioterapiya Mərkəzinə, 29-u Diaqnostika Müalicə Mərkəzinə olmaqla, ümumilikdə, 62 sağlamlıq imkanları məhdud şəxs sanator-kurort müalicəsi üçün qəbul olunub. Səhiyyə Nazirliyi hesabat dövründə 38 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 6 nəfəri Naxçıvan Muxtar Respublika Əlillərin Bərpa Mərkəzinə reabilitasiya müalicəsinə, 2 nəfəri isə müxtəlif xəstəxanalara göndərib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Hər kəs özünəməxsus fərqli bir ömür yaşayır. Böyük zaman üçün çox kiçik olan qısa bir ömrü fəsillər kimi düşünə bilərik. Ömrün də baharı, yayı, payızı, qışı vardır. Gələcək məhsulun təməli baharda qoyulduğu kimi, insanın gələcək mənalı ömrünün də əsası gənclikdə qoyulur. Nahaq demirlər ki, gənclik ömrün baharıdır. Gənclik də bahar kimi qaynar, bahar kimi rəngarəng, bahar kimi zəngin olur. Ona görədir ki, yaxşı nə varsa, hər şey gənclikdə qazanılır, – insan ailədən, məktəbdən, ətraf mühitdən, mütaliə etdiyi kitablardan, sağlam əhatəsindən, müdrik, ağsaqqal insanlardan eşidir, özünə doğru, düzgün yol seçir. O insanlar xoşbəxtdir ki, mənən rahatdırlar, gördüyü işləri ilə tanınır, el-obasını şöhrətləndirirlər. Belə ləyaqətli insanlardan biri, el ağsaqqalı Fərrux Nağızadə haqqında söhbət açmağı bir ziyalı kimi özümə borc bilirəm.***

## Gənclərimizə örnək ömür yolu



Fərrux müəllim yeniyetmə və gənclərimizə örnək olacaq şərəfli bir ömür yolu keçib. Bu yol Ordubad rayonunun Yuxarı Əndəmic kəndində göz açdığı sadə fəhlə ailəsində doğulduğu ocağa, yurda, torpağa sevgi, əməyə, zəhmətə bağlılıqdan başlayaraq məktəb illərində yaxşı oxumaqdan, sonra da hərbçi kimi uğurlu hərbi xidmətdən keçib.

1969-cu ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini müvəffəqiyyətlə bitirərək Laçın, Zərdab rayon hərbi komissarlıqlarında məsul vəzifələr daşıyır. 1978-1983-cü illərdə Oğuz rayonunun, 1983-1989-cu illərdə isə Ağdam rayonunun hərbi komissarı vəzifələrində çalışır. Təqaüdə çıxdıqdan sonra yenidən öz doğma kəndinə, ata-baba ocağına qayıdır, yenə də torpağa, zəhmətə bağlanır, el-obasının xeyir-şər işlərində yaxından iştirak edir.

Ehtiyatda olan polkovnik-leytenant kimi 1995-ci ildə Ordubad Rayon İcra Hakimiyyətində Mülki müdafiə qərargahının rəisi vəzifəsinə dəvət alır, 2000-ci ilədək bu vəzifədə çalışır. 2003-cü ildən isə Ordubad Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranlar Şurasının sədri vəzifəsində çalışır.

Bir hərbçi kimi möhkəm xarakteri, iradə və qətiyyəti ilə seçilən Fərrux müəllim həmişə Vətənə, dövlətə, dövlətçiliyimizə sədaqəti ilə seçilib. Gəncliyindən hər bir işdə nümunəvi, məsuliyyətli və intizamlı olmağı sevən Fərrux Nağızadə bir ağsaqqal kimi bu gün də gənclərimizə böyük, kiçik yerini bilməyi, insani ləyaqəti uca tutmağı, etik qaydaları gözləməyi, milli-mənəvi dəyərlərə sadiq olmağı tövsiyə edir. Həm də onların yaxşı işini, uğurunu, istedad və bacarıqlarını görəndə bir ağsaqqal kimi çox sevinir. Milli ordu sıralarına yola düşən gənclərimizə hər bir çağırışda bir təcrübəli hərbçi kimi də xeyir-dua verir, onlara öz dəyərli tövsiyələrini çatdırır.

Zahiri görünüşcə sərt təbiətli görünsə də, olduqca səmimi, mehriban və açıqqəlblidir, insanlarla həmsöhbət olmaqla hər kəsin qəlbinə yol tapa bilir. İctimai işlər aparmaqla, rayonda keçirilən müxtəlif tədbirlərdə fəal iştirak etməklə yanaşı, Fərrux müəllim həm də əməksevər, torpağa bağlı insandır, səriştəli bağbandır. Öz əlinin səliqəsi və zəhməti ilə torpağını əkib-becərir, sübh tezdən bağına, bağçasına salam verir, yetişdirdiyi ağaclarına, tinglərinə sığal çəkir, qulluq edir, calaq vurur, müxtəlif növ yeni meyvə ağacları yetişdirir, onların nazını çəkir.

Qayğıkeş ata, mehriban baba olan Fərrux müəllim həm də kövrək qəlbiylə yazıb-yaradır, öz fikir və düşüncələrini poetik misralara çevirir. Geniş oxucu auditoriyasına, ilk olaraq müxtəlif səpkili, maraqlı və məzmunlu şeirləri ilə 2010-cu ildə nəşr olunan "Gözlərim yolunda, izində qaldı" kitabı ilə gəlib. Sözə yüksək dəyər verən Fərrux müəllim yazır:

*Yaxşı dinləməyi bacarmaq ki, var*
*Yaxşı danışmağa bərabər olar.*
*Dil ən gözəlidir şirniyyatlardan*
*Dillə valeh edər şirindil adam.*

2011-ci ildə onun "Mənə silah verin" kitabı işıq üzü görüb. Fərrux müəllimin "Yurd qayıtmaz davasız, yurd qayıtmaz havadan" deməsi bir daha 44 günlük, sonu zəfərlə bitən Vətən müharibəmizdə öz təsdiqini tapdı. 2018-ci ildə şairin sayca üçüncü kitabı olan "Dağlar da arxasız olmasın" kitabı ilə vaxtilə yaşayıb işlədiyi Qarabağ bölgəsində oxucuların çoxunun bilmədikləri, özünün şahidi olduğu hadisə və həqiqətləri onlara çatdırır, ağsaqqal təmkini və nəsihətilə gənclərimizi öz ata ocağının çırağını yandırmağa səsləyir.

Bütün sevgilərin başında ilahi sevgi – Uca Yaradana sevgi dayanır. Bu, 2019-cu ildə ərsəyə gətirdiyi dördüncü kitabı olan "Peyğəmbərlər" kitabında da bir daha öz təsdiqini tapıb. Müqəddəs kitabımız "Qurani-Kərim"dən bəhrələnən və peyğəmbərlərimizin həyatına dair hekayətlərə yaxından bələd olan şair ilahi gerçək həqiqətləri şeirin dili ilə oxucularına çatdırır. İnsanları yüksək bəşəri hisslərə, düzlük və paklığa, daxili zənginlik və mənəvi ucalığa, səbir və dözümə çağırır.

Ömrünün müdrik və ixtiyar çağını yaşayan Fərrux Nağızadə bu gün də yorulmadan çalışır, yazır, yaradır. "Peyğəmbərlər" kitabının II cildi üzərində həvəslə işləyir. Biz də, öz növbəmizdə, el ağsaqqalımız Fərrux müəllimə uzun ömür, möhkəm cansağlığı arzulayırıq ki, yazıb-yaratmaq istədiklərini, poetik duyğularını şeirlərə, kitablara çevirsin, oxucularla növbəti kitabı ilə yenidən görüşə gəlsin.

**Əyyar SƏFƏROV**
***Ordubad rayon Əndəmic kənd tam orta məktəbinin direktoru***

## Naxçıvan gömrükçüləri 47 kiloqramdan artıq narkotik vasitə aşkarlayıb



Naxçıvan gömrükçüləri narkotik qaçaqmalçılığı üzrə daha bir cəhdin qarşısını alıblar. Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına, oradan da təyinat ölkəsi Almaniya Federativ Respublikasına mebel və xalça yükü aparan 63-AA-657/63-AA-658 dövlət nömrə nişanlı "DAF" markalı nəqliyyat vasitəsinə Şahtaxtı dövlət sərhədindən buraxılış məntəqəsində rentgen qurğusu vasitəsilə gömrük baxışı həyata keçirilən zaman əşyaların içərisində şübhəli təsvirlər müəyyən olunub.

Həmin təsvirlər əsasında nəqliyyat vasitəsinin qoşqusuna baxış keçirilən zaman 6 ədəd kreslonun və 1 ədəd divanın qoltuq hissələrində gizlədilmiş 26 ədəd bağlamada ümumi çəkisi 47 kiloqram 376 qram olan narkotik vasitə – tiryək aşkar edilərək götürülüb.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Naxçıvan şahmatının ən güclüləri yenidən bir arada




Ötən il ölkəmizin şahmat ictimaiyyətində böyük maraqla qarşılanan "Naxçıvan Premium Turnir" bu il ikinci mövsümlə yeni mübarizəyə səhnə olacaq. 14-25 yanvar tarixlərini əhatə edəcək turnirin əsas mərhələsində 2021-ci ilin dekabrında keçirilən seçmə mərhələ yarışını adlayan şahmatçılar və ötən mövsümün ilk üçlüyü – qrossmeyster Urfan Sevdimalıyev, beynəlxalq ustalar Pərviz Qasımov və Toğrul Həsənzadə qələbə uğrunda mübarizə aparacaqlar.

Dairəvi sistem üzrə 11 turdan ibarət yarışda oyun vaxtı 90 dəqiqə + hər gedişə 30 saniyə olmaqla təyin edilib. Turnir cədvəlində xallar bərabər olduğu təqdirdə, "Berqer əmsalı", şəxsi görüşlərin nəticəsi və qələbələrin sayı əsas götürüləcək. Turnirdəki sıralamadan asılı olaraq iştirakçıların hər birinə pul mükafatı təqdim olunacaq.

Yarış müddətində iştirakçılar Naxçıvan Şahmat Federasiyasının dəstəyi ilə "Təbriz" mehmanxanasında məskunlaşacaqlar. Oyunlar isə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində reallaşacaq.

Xatırladaq ki, ilk dəfə təşkil olunan "Naxçıvan Premium Turnir"in qalibi Urfan Sevdimalıyev olmuşdu.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### Bildiriş

"Naxçıvan Şüşə Qablar" Açıq Səhmdar Cəmiyyətinin növbədənkənar ümumi yığıncağı 10 yanvar 2022-ci il tarixdə Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsində yerləşən inzibati binasında keçiriləcəkdir. Gündəlikdə duran məsələ "Naxçıvan Şüşə Qablar" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi olacaq.

### İtmişdir

Şərur rayonunun Siyaqut kənd sakini Verdiyev Məzahir Qasım oğlunun adına olan JN-0061 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 24